# V - Uşağ Neğmeleri
## (Çocuk Koşukları)
(s. 101.117)

OĞLUM

1. Ay aferin, gül oğlum, ,
Gül oğlum, sünbül oğlum.
Oğlum, oğlum naz oğlum,
Dersindan qalmaz oğlum.
Qelemini al ele,
Yaxşı yaxşı[1] yaz oğlum

Oğlum geder mektebe,
Oxur çatar metlebe[2].
Dersin oxur revanlar[3]
Ne oxuybdur anlar
Daş üste çiçek qazar,
Meşqini[4] göyçek yazar.
Menim oğlum candı, can,
Derslerin oxur, revan.
Gümüşdendir davatı,
Qelemi var beş-altı.
Qelemdaru şekilli,
Qelemi xallı-mullu[5].
Defteri var tertemiz,
Kitabı ondan eziz.
Kağızları rengbereng,
Oğlum, getir yaz görek.
Oğlum seherden durar,
El-üzün temiz yuyar.
Üzüne gülab[6] vurar,
Saçın, birçeyin darar.
Paltarını[7] temizler,
Mektebe göyçek geder.
Oğlumun adı Eziz,
Üst-başı tertemiz.
Oğlum her keşi[8] görer,
Baş eyer, salam verer.
Oğlum küçede qalmaz,
Heç kes ila savaşmaz.
Oğlum ite daş atmaz,
Atıb günaha batmaz.
Quşlara etmez azar[9],
Quşlarm da canı var!
Pişikleri[10] heç vurmaz,
Serçelere tor[11] qurmaz.
Ay aferin, gül oğlum,
Gül oğlum, bülbül oğlum.
Dersin oxu, revanlı
Sonra danış, gül oğlum!

ÜŞÜDÜM, HA ÜŞÜDÜM

2. Üşüdüm, ha üşüdüm,
Dağdan alma daşıdım.
Almacığım aldılar,
Meni quyuya saldılar.
Cürümçüler[12] geldiler,
Mene cürüm verdiler.
Men cürümden bezaram.
Derin quyu qazaram.
Derin quyu beş keçi,
Hanı bunun erked[13]
Erkec qaya başında.
Hay eledim gelmedi,
Çiyid verdim yemedi.
Çiyid qazanda qaynar,
Qenber getdi oduna,
Qarğı batdı buduna
Qarğı deyil qamışdı,
Beş barınağım gümüşdü.
Qamçı çekdim ağ ata,
Gümüşü verdim tata.
Tat mene darı verdi,
Darını sepdim quşa.
Quş mene qanad verdi.

I. güzel güzel 2. arzusuna 3. zihni açıklar 4. ödevini 5. benek benek 6. gülsuyu 7. elbise 8. herkimi 9. eziyet 10. kedi
II. tuzak 12. suç takipçileri, kolluk güçleri 13. yaşlı teke

Qanadlandım uçmağa,
Haq qapısm açmağa,
Qapıçı qapı toxur, içinde
bülbül oxur.

QIZIM

3. Qızım, qızım, nazdı qızım,
Min tümene azdı[1] qızım,
Min tümeni getireler,
Qızı yerden götüreler.

Balamdı, xandı, xandı,
Bağçada quş qovandı,
Misri qüme[2] belinde,
Vurmağa pehlevandı.

Qızım qızlar içinde,
Eyrisi yox qıçında,
Qızımçün elçi geler
Bu gelen ayın içinde.

4. Beşdi-beşdi, ha beşdi,
Ağacdan alma düşdü.
Alamanm yanı zede
Zedeni yemez gede.
Çoban çölde gezirdi,
Davarların düzürdü.
Çoban qoyuna geder,
Köpeyi adam dider.
Bu iş gene ne işdi,
Beş parmağım gümüşdü.
Gümüşü verdim tata,
Tat mene darı satdı.
Darını sepdim yere,
Yerde bitib göy ere,
Yerden darı göyerdi,
Biçinçi geldi, derdi.
Biçinçi Hezretqulu,
Cibinde vardı pulu.
Hezretqulu bennadı[3],
Arvadını dannadı[4],
Arvadı Cahan bacı
Bunun çarşabı hanı?
Çarşabı cırılıbdır,
Qolbağı qırıllıbdır.
Cahan gedib hamama,
Çarşabmı yamama.
Hamamın suyu isti,
İsti su da ne pisdi.
Telperi onun qızı,
Paltarı qıpqırmızı.
Oğlunun adı Xıdır,
Elindeki dehredir[5].
Xıdır beyin dehresi,
Telperinin cehresi,
Cehre deme esasdı,
Dehre deme almasdı,
Telperi yunu darar
Xıdır bey dokun yarar

DENDELEN GÖZ

5. Bacadan baxan dendelen[6] göz,
Birisi keher[7], birisi boz.
Mindim bozun boynuna,
Sürdüm Urum yoluna.
Urum yolu derbeder,
İçinde meymun gezer.
Meymunu hürkütdüler,
Çhılağın qırpıtdılar.
Dağda gezen Hacılar,
Vurdu qolum qırıldı.
Qolum qazanda qaynar,
Oğlaq yanında oynar.
Oğlağı yere vurdum,
Yer mene yemlik verdi.
Yemliyi tata verdim,
Tat mene dan verdi.
Darını quşa verdim,
Quş mene qanad verdi.
Qanadlandım uçmağa.
Haq qapısm açmağa.
Haq qapısı kilidli,
Kilid deve boynunda,
Deve Urum yolunda.

TAMAR BEY...

6. Tamar bey, Tamar bey,
İnci düşer, Tamar bey.
Qaraca oğlan, ni peşe[8],
Geder-geler hemmeşe[9].
Hemmeşe heder-beder,
Beyler Tiflise geder.
Beyleri öldürerler,
Ala-bula geydirerler.
Ketan" köynek fil-fil,
Gel oxu bizim dili.
Bizim dil alapaxta[12],
Yuvası dal budaqda.
Orurub kerke[13] işler,
Atasıynan otaqda.

AYZA-AYZA, NERGİZE...

7. Ayza-ayza[14] Nergize,
Cehizi götür, gel bize,
Bizden gedek Tebrize,
Tebriz xereb olub gel,
Demir daraq olub, gel.
Demircinin qızları,
Yolda qaldı gözleri.
Güneş gözün açanda,
Şübh şef eqin saçanda,
İgidler yol atında,
Sevdanın qanadmda,
Demircinin bağından,
Qızların otağından,
Ayza-ayza, Nergize,
Apardılari[5] Tebrize.

1. yolunu şaşırdı, kandırıldı 2. mısrî kılıç 3. duvar ustası 4. azarladı 5. büyük bahçe bıçağı, tahra 6. dendelen 7. doru 8. sanatsız, mesleksiz 9. daima, her zaman 10. boşu boşuna 11. keten 12. halkalı güvercin 13. bir tatlı su balığı 14. halk oyunlarında bir tipleme 15. götürdüler

## ELDEN ÇIXDI KEPENEK

El-el epelek
Elden çıxdı kepenek,
Kepeneyin yarısı,
Yumurtanın sarısı,
Derbendin şeh qalası,
Emim oğlu Balası,
Getdi felek yoluna
Felek yolu derbeder,
İçinde meymun gezer.
Meymunu hürkütdüm,
Balasını qorxutdum.
Yol kenarı barılar[1],
Görenin bağrı yarılar.
Yoldan keçen qarılar,
Yurdu qolum qırıldı.
Qolum qazanda qaynar,
Oğlaq yanında oynar,
Çaparımı[2] çapdırdım
Kündesini[3] yapdırdım.
Etini ite atdım,
Otunu ata atdım,
Ot yerini otdatdım,
El-qolumu qatdatdım
Düşmen bağrın çatdatdım
El-el epelek
Elden çıxdı kepenek.

## ÇETİN, ÇETİN QOZ4

9. Çetin qoz, çetin qoz,
Biri kaval, biri boz,
Mindim bozun boynuna,
Sürdüm Urum yoluna.
Urum yolu derbeder
İçinde meymun gezer.
Meymunun balaları,
Meni görcek ağladı,
Üreyimi dağladı.
Kor meymunu hürkütdüm,
Çıxıb mindim dalma,
Sürdüm Urum bağına.

## HAMAM, HAMAM İÇİNDE

10. Hamam, hamam içinde,
Xelbir saman içinde.
Deve delleklik eyler,
Köhne hamam içinde.
Qarışqa[5] şıllaq[6] atdı,
Devenin budu batdı.
Hamamcının tası yox,
Baltacının baltası yox.
Orda bir tazı gördüm,
Onunda xaltası[7] yox.
Günlerin bir gününde,
Memednesir tininde,
Göytepenin belinde.
Şah Abbas cennetmekan,
Tereziye verdi tekan[8],
İki qoz, bir girdekan[9].
Milçek[10] mindik, çay keçdik,
Yabaynan dovğa[11] içdik.

## TULKÜ, TÜLKÜ

11. Tülkü, tülkü, tünbekii2,
Quyruq üste Lünbeki[13]
Aslan ala ağamız,
Qaplan qara qağamız[14].
Xoruz bizim mollamız,
Çaqqal da çavuşumuz,
Alaqarğa darğamız[15],
Sağsağan xeberçimiz,
Toyuq bizim çerçimiz,
İlan bizim qemçimiz.
Sarıbabada gezersen,
Bir çomaq vurram ölersen,
Tülkü, tülkü, tülkü, seni,
Öldürerler bil ki seni!

## KİME DÜŞEK QONAQ?

12. Ayı axmaq,
Donuz toxmaq.
Qurd ulavuş[16],
Çaqqal çavuş.
İlan qamçı,
Qara qarğa.
Çox yalancı,
Cüyür[17] ürkek.
Tülkü k l k ı s
Şir amansız.
Kel imansız,
Porsuq gümür[19].
Dovşan sümür,
Keçi yalan,
Evi talan,
Tısbağa çanaq
Kime düşek qonaq?

## A TESTİ 20

13. A teşti-teşdi, testi,
Vurdum Gilanı keşdi.
İki xoruz dalaşdı,
Biri gana bulaşdı.
Qan getdi çaya düşdü,
Çaydan göyarçin uşdu.
Göyerçin aîapaxta[2:],
Yuvası qelbi taxta,
Görüm onu kim vursa,
Qan qussun laxta-laxta[22].

I. duvarlar 2. atlı postacı 3. hamur merdanesi 4. ceviz 5. karınca 6. tokat 7. tasma 8. salladı 9. ceviz 10. sinek
II. bir tür çorba 12. uydurma bir tekerleme sözü 13. anlamsız bir söz 14. ağabey 15. mahallî idareci 16. uluyan
17. ceylana benzer hayvan 18. hileci 19. kemir 20. testi 21. halkalı güvercin 22. pıhtı

KESIBDI

14. Elimi bıçaq kesibdi,
Deste bıçaq kesibdi,
Yağ getirin, yağlayaq,
Bal getirin, ballayaq,
Desmal verin, bağlayaq,
Desmal deve boynunda,
Deve Şirvan yolunda.
Şirvan yolu lil bağlar,
Deste-deste gül bağlar.
O gülün birin üzeydim[1],
Tellerime düzeydim.
Qardaşımm toyunda,
Oturub durub süzeydim.

EMİM OĞLU

15. Emim oğlu,
Üzü buğlu.
Haldırım[2] dedi,
Huldurum[3] dedi.
Göye bir ağaç atdı,
Kerki sapı[4],
Gül budağı.

## Acıtmalar

KEÇEL

1. Keçel-keçel noxudu keçel[5]
Taxılı quyub, otu biçer...
Keçel mindi atma,
Sürdü dağm altma.
Dağ gediyi bağlıdı,
Keçelin başı yağlıdı.

A KOSA-KOSA6

2. A kosa-kosa, gelsene,
Meclisi eyletsene,
Koşam bir oyun eyler,
Deveni qoyun eyler,
Süzdürüb alçaq geder,
Qolunda qolçaq geder.
A kosa-kosa, gelsene,
Meclisi eyletsene.
Koşam bir oyun eyler,
Deveni qoyun eyler.
Süzdürüb alçaq geder,
Qolunda qolçaq geder.

A HADİ, HADİ, HAD BUDU..

3. A Budu[7] yoldan keçdin mi?
Hadının[8] südün içdin mi?
A Budu Hadi xestedi,
Xeste yox, can üstedi.
Kumaş[9] tuyda baş olar.
Yediyi bozbaş olar.
Kumaş meydana çıxsa
Bolluca şabaş[10] olar.
Kumaş oyniyen günü,
Şabaşım daşbaş olar

Şal getir kefen cıraq.
Evinde sönüb çiraq
Şam getir, şamdana qoy,
Yağ getir yağdana qoy...
Ay Hadi, Hadı,Had Budu,
Hadi day kime kerek...
Sicim ver sicimleyek
Hadmın budun dağlayaq.
El-ayağm bağlayaq.
A Budu, Hadi xestedi,
Xeste yox, can üstedi.
Düymelerini say gelsin.
Aç başını yay gelsin.

A TAĞIDİM, DİM DİRAZ.

4. Ay tağı[11], dim, dim diraz[12],
Gel bizi güldür biraz.
Boynunu ey saz kimi,
Bir cikke çek qaz kimi.
Qardaşı gombuT[13] Tağı,
Kellesi dombul Tağı.
Uzundraz[14],
Beynavaz[15],
Xeyre-şere.
Yaramaz.
A Tağı sim-sim, Tağı,
Qedeşi görmesin Tağı,
A gözleri maviser,
Bayıra çıxma yel eser.
Ay Tağı, düzüm Tağı,
Toyunda süzüm Tağı.
Bir iftira yalan de,
Yalancıya salam de.
Ay Tağı, naqqal[17] Tağı,
Dayısı baqqal Tağı,
Gözleri göyçek,
Dişleri seyrek,
Sarıbaş oğlan,
Hardadı gören.
Ay Tağı dim, dim diraz,
Gel bizi güldür biraz.

Boynunu ey saz kimi,
Bir cikke çek qaz kimi.
Ay Tağı, dim, dim diraz,
Gel bizi güldür biraz.

1. koparaydım 2-3 kendini beğenmişlik manasında 4. kazma 5. nohut gibi kel 6.halk eğlencelerinde bir tip,kel 7-8. halk eğlence oyunları tiplerinden 9. bir başka tipleme 10. düğünlerde oynayanlara ye çalgıcılara verilen bahşiş 11. bir tipleme 12. uzun boylu 13. şişman 14. sözleriyle hareketleri uyuşmayan 15. elinden iş gelmeyen

DÜŞDÜ YATAĞA

5. Hesenağa
Doldu yarağa[1],
Mindi ulağa[2]
Sürdü bağa,
Bir quş vurdu,
O da qurbağa.
Qoydu çanağa,
Verdi qonağa.
Qonaq yemedi,
Saldı yağa.
Başladı
Qovurmağa
Qoydu qabağa[3]
Başladı
Yemeye
Düşdü yatağa.

KEÇEL

6. Keçel, keçel, daz keçel,
Her yanda parvaz keçel.
Qış gelib qurtarmısan,
Budu gelir yaz, keçel.

Keçel, keçel, merendi[4],
Qolları düymelendi.
Eşitdi saçlı gelir,
Başına kül elendi.
Keçel-keçel, noxudu keçel[5],
Başı-gözü qoxulu keçel.

Keçel,keçel merende,
Arpa, buğda serende.
Bir arpam beş eyler,
Yeddi qazan aş eyler.
Gelin yığüaq basma,
Zeher qataq aşma.

Keçel, aşın bişibdi,
Noxudlarm şişibdi.
On iki keçel bir yerde,
Xarta-xurta düşübdü.

Keçelin xondu[6] başı,
Eşşeye mindi başı.
O yanda dava düşdü[7],
Bu yanda sındı[8] başı.

QARI

7 Bir qarıcıq var idi,
Tumancığı dar idi,
Canından bezer idi.
Aftafa aldı? ele,
Getdi buz üste bele,
Buz üstünde yoruldu,
Aftafası qırıldı.

Asılana-asılana
feğan eyledi:
Üzün tutub buza
bele söyledi:
- Ne zalımsan, sen a buz?
- Men zalim olsaydım,
Gün meni eritmez idi.
- Gün, sen ne zalımsan?
- Men zalim olsaydım,
Bulud qabağımı kezmez idi.
- A bulud, sen ne zalımsan?
- Men zalim olsaydım,
Yağış menden yağmazdı.
- A yağış sen ne zalımsan?
- Men zalim olsaydım,
Göy ot menden bitmezdi.
- Ay ot, sen ne zalımsan?
- Men zalim olsaydım,
Qoyunlar başımı üzmezdi[10].
- Ay qoyunlar, siz ne zalımsız?
-Biz zalim olsaydıq,
Canavar bizi yemez idi.
- Canavarlar sen ne zalımsan?
- Men zalim olsaydım,
Qara köpek meni boğmaz idi.
- Qara köpek, sen ne zalımsan?
- Men zalim olsaydım,
Siçanlar çöreyimi yemezdi.
- Ay siçanlar, siz ne zalımsız?
- Biz zalim olsaydıq,
Pişikler bizi boğmazdı.
- Ay pişikler, siz ne zalımsız?
- Biz zalımıq, zalımıq,
Yük üste yorganımız,
Kürsü üste qışlağımız.

Bir qarıcıq var idi,
Tumancağı dar idi.
Canından bezer idi,
Aftafa aldı ele,
Getdi buz üste bele.
Buz üstünde yoruldu.
Aftafası qırıldı...
Bir qarıcıq var idi,
Tumancağı dar idi...

NEYNİREM ONU

Bize üç ad bellidi,
Şekerlidi, ballıdı. Eli,
Veli, Pirveli,

Mehemmed ondan ireli

Fmdıq satan, qoz satan
Rehmetlik senin atan.

Fatma, tükezban,
Zibeyde bir can
Tükezban yeyer,

1. silaha *1.* eşeğe 3. önüne 4. tırpan 5. kel 6.kan 7. kavga çıktı 8. kırıldı 9. ibrik 10. koparmazdi

Fatma hey deyer,
Fatma, tükezban,
Qarışdı her yan,
Kişnedi göyler,
Dağıldı evler.
Fatma, zibeyde,
İkisi bir boyda.
Fatma dalaşdı,
Zibeyde qaşdı.
Barıdan[1] aşdı,
Çarxa[2] dolaşdı.
Elleri fetü-3
İsteyir xetir
Ayağı kendir
Nefesi tendir
Dili bir ersin.
Burnu bir şalin
Fatma xanım tendirde,
El-ayağı kendirde,
Fatma biçinde,
Qan-ter içinde,
Cırıldı donu,
Neynirem onu.

İYNE, İYNE

1. İyne, iyne.
Ucu düyme,
Bal ballıca
Ballı keçi.
Şam ağacı[5],
Şatır keçi[6].
Qoz ağacı[7],
Qotur keçi[8].
Hoppan,
Huppan,
Yırtıl,
Yırtıl,
Su iç,
Qurtul.

MOTAL-MOTAL

2. Emim oğlu,
Uzun bığlı.
Haldırım™ dedi.
Huldurum[11] dedi.
Göye bir ağaç atdı.
Qarğı sapı,
Gül budağı.
Motal-motal,.
Terse[12] motal.
Qıl atar",
Qaymaq qatar.
Ağ quşum-ağarçmım
Göy quşum-göyerçinim.
Vur nağara[14],
Çıx qırağa.

Zibeyde çölde,
Ayağı gölde.
Başı dumanlı,
Köhne tumanlı,
Eli süpürgeli,
Saçı sirkeli
Yanı itdi,
Yaxası bitdi.
Fenadı sonu,
Neynirem onu
Tükezban yatır,
Qız deme qatır,
Xor-xor xoruldar,
Gur-gur guruldar.
Gözleri miş-miş,
Yanağı bişmiş.
Ömrü âxırdı,
Axırı naxırdı,
Bele söylerem,
Onu neylerem.

## Sanamalar

BARMAQLAR

3. Baş barmaq
Başala barmaq.
Uzun Hacı.
Qıl turacı
Xırdava bacı.
Bu vurdu,
Bu tutdu,
Bu bişirdi,
Bu yedi,
Vay, bebeye qalmadı

4. Bir-iki
Bıldırki.
Üç-dörd
Qapmı ört.
Beş-altı
Daş altı
Yeddi-sekkiz
Firengiz
Doqquz-on
Qırmızı don.

5. Bir-iki,
Qırmadı,
Üç-dörd,
Vurmadı.
Beş-altı,
Xurmadı.
Yeddi-sekgiz,
Qurmadı,
Doqquz-on
Durnadı.

6. On bir, on iki,
Basmadı.
On üç, on dörd
Asmadı.
On beş
Derde salandı.
On altı
Can alandı.
On yeddi.
Qız toyudu.
On sekgiz
Cennet suyudu.
On doqquz
Yusif düşen quyudu.
İyirmi
Yadda qalandı.

7. İyirmi bir,
Yalandı.
İyirmi iki
Talandı.
İyirmi üç
Giftedi.1
İyirmi dörd,
Şer üstedi.
iyirmi beş
Reyhandı.
İyirmi altı
Ceyhandı.
İyirmi yeddi
Yağudu[2].
İyirmi sekkiz
Ağudu.
İyirmi doqquz
Pozandı.
Otuz
Şer üstündedi
Azandı[3],

8. Otuz bir de,
Gerekti.
Otuz iki
Melikdi.
Otuz üçse
Kölgedi.
Otuz dörd,
Qerib ölkedi.
Otuz beş
Her vaxt seherdir.
Otuz altı, Qeherdi.[4]
Otuz yeddi
Şeytandı. Otuz
sekgiz Böhtandı.5
Otuz doqquz
Qurandı. Qırx yerde
Möhlet sayıdı.

9. Qırx bir
Xızır payıdı.
Qırx iki
Tale yazandı.
Qırx üç,
Qaynar qazandı.
Qırx dörd
Nahid[6], denizdi.
Qırx beş,
Gözel kenizdi[7].
Qırx altı
Atdı.
Qırx yeddi,
Muraddı.
Qırx sekgiz
Göydü.
Qırx doqquz
Söydü...
Elli,
Amandı...

10. Elli bir,
Yamandı.
Elli iki
Gece.
Elli üç,
Bice[8].
Elli dörd,
Sözdü.
Elli beş,
Gözdü.
Elli altı
Dadı.
Elli yeddi,
Buxaqdı.[9]
Elli sekkiz,
Yoldur.
Elli doqquz,
Kesik qoldur.
Altmış,
Melhemdir.

11. Altmış bir,
Göz dermanı.
Selhengdi.
Altmış iki,
Nefesdir.
Altmış üç,
Qefesdir.
Altmış dörd,
Boyundu.
Altmış beş,
Gözbağlıca
Oyundu.
Altmış altı,
Devedir.
Altmış yeddi,
Nevedif.[10]
Altımş sekkiz;,
Günahsiz Tellidi.

1. güfte 2. düşman 3. sapıtandır 4. öfke 5. iftira 6. yeni yetme kız 7. köle 8. hiylekar 9. şakak 10. torun

Altmış doqquz,
Külek babam
Yellidir.
Yetmiş
Fesillerden
Bahardır.

12. Yetmiş bir,
Novbahardır.
Yetmiş iki Sütlü
alçadı[1]. Yetmiş üç
Uçan xalçadı.
Yetmiş dörd
Qarğadı. Yetmiş beş
Darğadı.2 Yetmiş
altı Neydi.
Yetmiş yeddi
Meydi.
Yetmiş sekgiz,
Çalmadı.
Yetmiş doqquz
Almadı,
Seksen
Gülüşdü.

13. Seksen bir,
Gümüşdü.
Seksen iki,
İncildi. Seksen
üç Zencirdi.
Seksen dörd,
Sarıdır. Seksen
beş Küpegiren
Qarıdı.

## Arzulamalar

1. Balama qurban kildaçar,
Balam na vaxt dil açar?

2. Balama qurban ilmekler,
Balam haçan[3] imekler?

3. Balama qurban ilanlar,
Balam havaxt[4] dil anlar?

4. Balama qurban kalçalar,
Balam hacan dil açar?

5. Balama qurban meyveler,
Balam haçan evlener?

6. Balama qurban daylaqlar[5],
Balam haçan oynaqlar?

7. Balama qurban buzovlar,
Balam ne vaxt quş ovlar?

8. Balama qurban xalçalar,
Balam ne vaxt el çalar?

9. Balama qurban giyolar,
Balam ne vaxt bey olar?

## Oxşamalar

1. Atın-tutun bu balanı,
Qende[6] qatın bu balanı.
Atası eve gelende,
Qabağa tutun, bu balanı.

Dağda darılar,
Sünbülü sarılar.
Qoca qarılar,
Bu balama qurban.

Dağdaki atlar,
Quyruğun qatlar,
Göyçekarvadlar,
Bu balama qurban.

4. Çaydaki qazlar,
Tükün torazlar,
Nişanlı qızlar, Bu
balama qurban.

5. Bir bölük atlar
Çemende otlar.
Ersiz arvadlar
Bu balama qurban.

6. Dağın maralı,
Gözü qaralı,
Dünyanın malı,
Bu balama qurban.

1. erik 2. bir tür mahallî idareci, muhtar 3. nasıl 4. ne zaman 5. tavlar 6. şekere

7. A dağdağanlar[1],
İlan boğanlar,
Oğlan doğanlar,
Bu balama qurban.

8. Dağda meşelik,
Gül benövşelik
Men hemişelik[2],
Bu balama qurban.

9. Dağda arılar,
Şanın yarılar,
Qoca qarılar,
Bu balama qurban.

10. Dağda inekler,
Balam imekler,
Xonçah[3] beyler,
Bu balama qurban.

11. Göyde ulduzlar,
Şaxtah[4] buzlar,
Cehizsiz qızlar,
Bu balama qurban.

12. Tüstüsüz damlar,
Sarı badamlar,
Tenbel adamlar,
Bu balama qurban.

13. Çaydır denizdir,
Quldur, kenizdir,
Balam her nedir,
Mene ezizdir.

14. Güzgüde[5] düyme,
Tozunu silme.
Xonçada tirme[6],
Geler qızımçün.

15. Durar namazdan,
Elinde Qur'an.
Bir de ki yorgan,
Geler qızımçün.

16. Yük üstü boxça,
Altında xonça.
Yüz dene xonça,
Geler qızımçün.

17. Elinde var def,
Üstünde sedef,
Bir zerli örpek[7],
Geler qızımçün.

18. Elimin barı[8],
Heyvası, narı,
On sap mirvari[9],
Geler qızımçün.

19. Elinde var def,
Üstünde sedef,
Bir qızıl inek,
Geler qızımçün.

20. Ağ man eller,
Belinde kemer.
Qızıl düymeler,
Geler qızımçün.

21. Mehmanat[10] bağı,
Yaşıl yarpağı.
Qızıl belbağı,
Geler qızımçün.

22. Güzgüde düyme,
Tozunu silme.
İki cüt çekme[11],
Geler qızımçün.

23. Çekdim cefasın,
Gördüm vefasın.
Böyüdüb bunu,
Görüm sefasın.

24. Tükendi ahım,
Yoxdur günahım.
Balam böyüse,
Odur penahım[1]?.

25. Gördüm nalasın[13],
Çekdim belasın.
Balam da ister,
Körpe balasın.

26. Min tümen azdı,
Qızdır o nazdır.
Verin balamı,
Halım nâsazdır[14].

27. Verdik bir dana,
Aldıq bir sona.
Ay emim qızı,
Qal yana-yana.

28. Verdik bir dana,
Aldıq bir sona.
Ay qız anası,
Qal yana-yana.

29. Qız göze oxdur,
Derd seri çoxdur.
Götürün tullaym[15],
Bir xeyri yoxdur.

30. Oğul ürekdir,
Qızıl direkdir.
Götürün saxlayın,
Qıza gerekdir.

1. bir ağaç 2. her zaman için 3. sofralı 4. soğuk 5. aynada 6. el dokuması kumaş 7. başörtüsü 8. meyvesi, ürünü 9. inci 10. misafirlik, ziyafet 11. çizme 12. sığmak 13. ağlama 14. dayanıksız, zayıf 15. fırlatıp atın

31. Qız bir maraldır,
Gözler qaraldır.
Hesret çekenin,
Rengin saraldır.

32. Badam badamı,
Oğlan adamı.
Qoy elçi gelsin,
Alsın qadamı.

33. Men çalım oyna,
Qurban boyuna.
El-oba gelsin,
Senin toyuna.

34. Oyna, balam, oyna,
Qurban kesim boyuna.
Oyna gülüm oyna,
Eller gelsin toyuna.

35. Bala dadı bal dadı,
Bala adamı aldadı.
Yaxşısına men qurban,
Pisi yene bal dadı.

## Laylalar

1. Layla dedim, can dedim,
Yuxudan oyan dedim.
Sen yuxudan durunca[1],
Canımı qurban dedim.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

2. Laylay dedim yatasan,
Qızılgüle batasan.
Qızılgülün içinde,
Şirin yuxu tapasan[2].
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

3. Laylay beşiyim, laylay,
Evim-eşiyim laylay.
Sen get şirin yuxuya,
Çekim keşiyin laylay.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

4. Laylay dedim adına.
Haq yetişsin dadına[3],
Her vaxt layla deyende,
Balam düşer yadıma.
Gülüm laylay a laylay,
Balam laylay a laylay.

5. Dağlara serin düşer,
Kölgesi derin düşer.
Her vaxt layla deyende,
Yadıma perim düşer.
Gülüm laylay, a laylay,
Canım laylay, a laylay.

6. Laylay dedim yatınca,
Gözlerem ay batınca.
Canım cezana[4] geldi,
Sen hasile çatınca[5].
Gülüm laylay, a laylay,
Balam laylay, a laylay.

7. Laylay dedim ucadan,
Ünüm çıxdı bacadan.
Tanrı seni saxlasm,
Çiçekden, qızılçadan.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

8. Laylay çaldım hemişe[6],
Karvan ener enişe.
Yastığında gül bitsin,
Döşeyinde benövşe.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

9. Dolansın el başına,
Sanalsın gül başına.
Seni istemeyenler,
Qalmasm il başına.
Gülüm laylay, a laylay,
Balam laylay, a laylay.

10. Bir gül ekdim boyunca,
İylemedim[7] doyunca.
Ömrüm, günüm uzansın,
Bu balamın toyunca.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

11. Laylay dedim boyunca,
Baş yastığa qoyunca.
Pardaxlan[8] qızılgülüm,
Bir iyleyim doyunca.
Laylay balam, a laylay,
Körpe balam, a laylay.

12. Evinde eşiyinde,
Yat quzum beşiyinde.
Dan ulduzu, bir de men,
Durmuşuq keşyinde.
Gülüm laylay, a laylay,
Balam laylay, a lavlay.

1. kalkınca 2. bulasın 3,imdadma 4. canım aktı 5. büvüyünceye kadar 6. daima, her zaman 7. koklamadım 8. serpil, büyü

13. Anan tel düzer sene,
Bacın gül bezer sene.
Tanrıdan ehdim budur,
Deymesin nezer sene.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

14. Nergizi üzüm lay-lay,
Yaxana düzüm lay-lay.
Sen böyü, men qocalım,
Toyunda süzüm, lay-lay.
Laylay balam, a laylay,
Körpe balam, a laylay.

15. Laylay dedim, can dedim,
Yuxudan oyan, dedim,
Sen yuxudan durunca,
Canımı qurban dedim.
Laylay balam, a laylay,
Birce balam, a laylay.

16. Laylay dedim yat dedim.
Yastığa baş at dedim.
Bala, çekim nazını,
Boya-başa çat, dedim.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

17. Men sene qalam deyim,
Gül deyim, lalam deyim.
Yat, incitme ananı,
Sağ olsun, balam deyim.
Gülüm laylay, a laylay,
Körpe balam, a laylay.

18. Laylay gözüm bebeyim,
Her arzum, her dileyim.
Dar günde, bed ayaqda,
Sensen menim kömeyim[1].
Balam laylay, a laylay
Gülüm laylay, a laylay.

19. Laylay, gülüm, a laylay,
Gülüm, bülbülüm laylay.
Böyü senin sayende,
Men de bir gülüm, laylay.
Gülüm laylay, a laylay,
Balam laylay, a laylay.

20. Laylay dedim carçı[2] men,
Haraycı[3] men, carçı men.
Toy gününde olaydım.
Küçelerde[4] carçı men.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

## Çaşdırmalar

Birlerin gün biri, tek piyade ile
yol gedirdim
Eve meni bir qonaq apardılar.
Aşı ocağa asıb qazan bişirdiler.
Aşda qazan çox lezzetli oldu.
Hazır bişib aş oldu.
Aşıma bir qab qabaq getirdiler, yeyince
doydum.
Dedim sağ çox sonra olun.

MEN DE, MEN DE

- Gel gedek bağa,
- Men de, men de.
- Çıxaq budağa,
- Men de, men de.
- Şaftalı yığaq,
- Men de, men de.

- Bağdan gelsin,
- Men de, men de.
- İti qışqırsm,
- Men de, men de,
- İt mene hürsün,
- Men de, men de.

PİŞİK

1. Şir el çekib belime,
Kim yapışar elime.
Arxam yere qoyulmaz
Yükler üste yaylağım,
Soba altı qışlagım.

Gelin verir, qaymağı,
Qarı çalır quymağı[5],
Çölde gezmek bilirem,
Suda üzmek bilirem.
Men muncuğu[6] götürrem
Tez yarıma yetirrem.

CÜCELERİM

2. Cücelerim birer-birer,
Şuyu görüb yaxın geler,
İçer, geder eşelener,
Yeyer, içer cücelerim,
Doyub qaçar cücelerim.

Cücelerim bezeklidi,
Bezeklidi, düzeklidi.
Sarı, çil-çil, her renglidi,
Yeyer, içer, cücelerim,
Doyub qaçar cücelerim.

Cücelerim cıvıldaşar,
Qanad çalar, pıçıldaşar.[7]
Anaları qırıldaşar.
Yeyer, içer cücelerim,
Doyub qaçar cücelerim.

1. yardanım 2. haberci 3. ağlayıcı 4. sokaklarda 5. kaymak ve unla yapılan bir yemek 6. boncuk 7. fısıldaşır

# Yanıltmacalar

1.Şap beyin Şuppulu xatını gönderdi meni, Şappulu xanımm şarap şurupımu getirmeye. Getdim, gördüm Şappulu xanımm şarapşurupunu Supla Şap şappıldadır. Şapa dedim şarapşurupu ver, dedi:

Şupdan iste, Supa dedim şarapşupu ver, dedi şapdan iste. Supu axtardım[1] şarapşurupu tapmadım[2], Şapı axtardım şarapşurupu tapmadım, gördüm ki, Şappulu xanımm şarapşurupu ne Şapdadır, ne Şupda, qaldım şarapşurupda...

Getdim gördüm bir derede iki kar[3], kor kürkü yırtıq kirpi var. Dişi kar, kor kürkü yırtıq kirpi erkek kar, kor kürkü yırtıq kirpinin kürkünü yamamaqdansa erkek kar, kor kürkü yırtıq kirpi dişi kar, kor kürkü yırtıq kirpinin kürkünü yamayır.

Ocaq, men seni qrğılcımlandırmadım. Seni qığücımlandıran qığılcımlandırdı. Sen qığılcımlanmasaydm da men seni qığılcımlandıracaydım.

O taydan[4] bir kişi gedirdi elinde qablama. Dedim, o qablamalı gel qablamalaşaq. Dedi, sen mennen qablamalaşsan da qablamalaşacam, qablamalaşmasan da qablamalaşacam.

Getdim gördüm bir derede yeddi yal[5], gara, ala, qaşqa[6], sekil, tepel[7] çepiş otduyur. Dedim ey yeddi yal, qara, ala, qaşça, sekil, tepel çepiş, sen yeddi yal qara, ala, qaşça, sekil, tepel çepiş, men yeddi yal, qara, ala, qaşqa, sekil, tepel çepişin yerin niye otduyursan? Dedi sen yeddi yal, qara, ala, qaşqa, sekil, tepel çepiş, men yeddi yal, qara, ala, qaşqa, sekil, tepel çepişin yerini otdadığma göre men yeddi yal, qara, ala, qaşqa, sekil, tepel çepiş de sen yeddi yal, qara, ala, qaşqa, sekil, tepel çepişin yerin otduyuram.

6. Nenem qatığı sarımsaqlasa da yeyecem, saramsaqlamasa da.

7. Ay qılquyruq qırqovul, gel bu kola gir qılquyruq qırqovul.

8. Dadaş dayı deyirmanm dalında daşı daşa, demiri daşa döyürdü.

9. Axşama aş asmışam, bilmeyib gaz asmışam.

10. Ey qefesdeki çil bildirçin qardaş! Gel çilbirdirçinleşek. Sen çilbildirçinleşmesen de, çilbildirçinleşeceyem.

11. Getdim gördüm bir taxçada[8] bal, bir taxçada qıl, bir taxçada zil. Balı uddum, qılı diddim, zili atdım.

12. Sen cümeaxşamlasan da cümeaxşamlaşacağam, cümeaxşamlaşmasan da.

13. Ey çerşenbe axşamı, gel çerşenbeleşek, sen çerşenbeleşesen de çerşenbeleşeceyem, çerşenbeleşmesen de.

1. aradım 2. bulamadım 3. sağır 4. o taraftan 5. tepe 6-7. sakar 8. duvar rafı

V